**Dünya mədəni irsinə, ədəbiyyatına və tarixinə görkəmli şəxsiyyətlər, şair və yazıçılar, elm və mədəniyyət xadimləri bəxş etmiş qədim Azərbaycan xalqı, eyni zamanda islam aləminə, müsəlman dünyasına da inanclı insanları, fəzilət sahibləri, irfan fəlsəfəsinin məşhur yaradıcıları ilə yaddaşlara öz möhürünü vura bilmişdir. Belə işıqlı insanlardan biri də Şeyx Əkmələddin oğlu Əbu Abdulla Siracəddin Ömər Avaxlı olub.**

# Yüz illərin gizlinləri aşkarlandı

## Pir Ömər Avaxlı kimdir?

Pir təsəvvüfdə təriqətin qurucusu, sahibi anlamında işlədilir. Orta əsrlər dövründə təşəkkül tapan və bu günədək dünyanın ayrı-ayrı guşələrində aktiv təmsilçilərinin olduğu fəlsəfi məktəblərdən biri xəlvətilik sufi məktəbidir. Xəlvətilik sufi məktəbinin tarixini araşdıran tədqiqatçılar hesab edirlər ki, bu məktəb ilkin olaraq XIV əsrin ortalarından başlayaraq həm Azərbaycan ərazisində, həm də konkret olaraq Şirvan regionunda yayılmışdır. Onun banisi isə tarixi mənbələrə əsasən, Şeyx Əkmələddin oğlu Əbu Abdulla Siracəddin Ömər Avaxlı olub. O, ilkin olaraq əmisi Əxi Məhəmmədin yanında dərs alıb. Daha sonra isə Xoy, Misir və Hicazda təlim keçib. Xəlvətilik sufi məktəbinin bir çox təməl prinsipləri məhz Pir Ömərin adı ilə bağlıdır. Belə bir məqamı da qeyd edək ki, Şirvan ərazisində Avaxlı adı ilə məlum olan yeganə yaşayış məntəqəsi Şamaxı rayonunun ərazisindədir. Hansı ki, yerli əhali arasında Pir Ömər Sultan ziyarətgahı kimi tanınan yeganə müqəddəs ocaq da məhz oradadır. Onu da xatırlatmaq yerinə düşər ki, xəlvətilik sufi təlimi ilə bağlı həlilik əlimizdə olan ən etibarlı tarixi mənbə Yusif Müşkirinin XV əsrin ikinci yarısına aid "Silsilətül-Uyun" əsəridir.

## Xəlvətilik deyəndə nə başa düşülür?

Xəlvətilik insanların görmədiyi, yalqız qala biləcəyi yerdir. Xəlvətə çəkilmək, Yaradanla başbaşa qalmaq... Məşhur islam filosofu və sufisi Muhyiddin ibn Ərəbi xəlvətə çəkilməyi belə izah edir: *"Xəlvətə çəkilmək, Tanrıdan başqa hər hansı bir varlığın - istər mələk olsun, istərsə də insan olsun - kimsənin olmadığı yerdə və zamanda ruhən Tanrı ilə söhbət etməkdi"*. Xəlvətilik XV əsrin ilk rübünə qədər mərkəzi Şamaxı olmaqla, Şirvanda fəaliyyət göstərən məhəlli bir təriqət idi. Bu təriqət həmin dövrdə Şamaxıdan Bakıya gələn gənc bir sufi şeyx tərəfindən yeni bir mərhələyə qədəm qoydu. Şirvanşahlar dövlətində Nəqibül-əşraf vəzifəsində olan Seyid Bəhaəddinin oğlu Seyid Cəmaləddin Yəhya xəlvətilərin yeni mürşidi oldu. Onun yenidən təsis etdiyi xəlvətilik XV əsrdən etibarən ədəbi, fəlsəfi, ictimai və siyasi sahələrdə böyük təsirə malik olmuş və müsəlman aləmində geniş şəkildə yayılmışdır. Avaxlıda təşəkkül tapan, Şirvanda və bütün Azərbaycanda formalaşma mərhələsi keçən bu sufi təlimi daha sonra Avropa, Asiya və Afrikanın hüdudları daxilində də geniş yayılmışdır. Orta əsr Azərbaycan multikultural dəyərlərinin bariz nümunəsi olaraq formalaşma dönəmində Şirvanşahlar dövləti tərəfindən dəstək alan xəlvətilik sufi məktəbini daha sonra Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Osmanlı, Misir Məmlükləri kimi dövrün böyük dövlətləri də himayə etmişlər. Göründüyü kimi, xəlvətilik sufi təlimi müasir dünyamızın geniş bir coğrafi arealını əhatə edir və onun çoxminli tərəfdarları bu gün də qalmaqdadır. Xəlvətilik təriqəti müsəlman dünyasında geniş yayılsa da, təriqətin yaradıcısı haqqında tarixi mənbələrdə yazılsa da, yaxın keçmişimizə kimi Pir Ömər Avaxlının məzarının harada olması barədə dəqiq məlumat yox idi. Dünyanın bir sıra ölkələrində alimlər, arxeoloqlar, inanc sahibləri təriqətin yaradıcısını özlərininki hesab edib onun məzarını, türbəsini öz ölkələrinin ərazisində axtarırdılar. Azərbaycanlı alimlər də hesab edirdilər ki, xəlvəti təriqətinin yaradıcısı azərbaycanlı olduğu üçün onun məzarı da ölkəmizin ərazisindədir. Şamaxı rayonunun ərazisində Avaxlı kəndi və Pir Ömər Sultan ziyarətgahı olduğu üçün mütəxəssislər hesab edirdilər ki, türbəni bu ərazidə axtarmalıdırlar.





Nəhayət, 2019-cu ildə Şamaxı rayonunun Avaxlı kəndi ərazisində Pir Ömər Sultan ziyarətgahı adı ilə bəlli olan ziyarətgahın məhz xəlvəti sufi məktəbinin banisi Əbu Siracəddin Ömər Avaxlıya aid olduğunu müəyyən etmək məqsədilə tədqiqatlar başladı.

133 kvadratmetr sahədə aparılan ilkin arxeoloji tədqiqatlar zamanı ərazidə XIV əsrin ortalarına aid türbə qalıqları və onun məhz xəlvətilik təliminin banisi Pir Ömər Avaxlıya aid olduğunu təsdiqləyən artefaktlar aşkar olundu. Türbə qaya və çay daşlarından istifadə olunmaqla inşa edilmişdi. Onun içərisində kənarları birqat bişmiş kərpiclə əhatələnən iki kamera qeydə alınmışdı. Tədqiqat zamanı oradan içərisində "La İlahə İlləllah" kəlmələri yazılmış daş kitabənin bir parçası, habelə üzərində Şirvan memarlıq məktəbi üçün səciyyəvi olan daş üzərində oyma üsulu ilə işlənmiş şəbəkə, xəlvətilik təlimi ilə bağlı ritualların icrası zamanı istifadə olunmuş XIV əsrə aid şirli və şirsiz keramika nümunələri və bir neçə sikkə aşkar olunmuşdu. Türbənin içərisində tapılan müxtəlif tarixi dövrlərə aid pullar, üçkünc və dördkünc formada hazırlanmış dualar əsrlər boyu insanların Pir Ömər ziyarətgahına olan inamından xəbər verirdi.

Pir Ömər ziyarətgahının ətrafında çoxsaylı insanlar dəfn olunub. Onlardan türbənin şərq tərəfində tədqiq olunan iki qəbir üzərindəki kitabə məhz Pir Ömər Avaxlıya aid olduğunu təsdiqləyən çox mühüm tarixi mənbə kimi dəyərləndirilə bilər.

Tədqiqatçılar deyirlər ki, qəbirlərdən birinin kitabəsində ərəb əlifbası ilə "Şeyx Cəlil min övladı Sultan Bəyazid", onun yanındakı digər qəbir daşında isə "Allahvermiş Şeyx oğlu Cəlil" sözləri yazılıb. Birinci qəbir 1819-cu, ikinci qəbir isə 1809-cu ilə aiddir. Bu o deməkdir ki, Allahvermiş oğul atası Şeyx Cəlildən 10 il tez dünyasını dəyişib. Burada elmi cəhətdən ən çox diqqətçəkən məqam Şeyx Cəlilin Pir Ömər Avaxlı ilə əlaqəsi məsələsidir. Yusif Müşkirinin yazdığına görə, Pir Ömər Avaxlının dörd xəlifəsindən biri Bəyazid, digəri isə "Əxi Mirim" kimi tanınan Molla Əli Məlhəmi Şirvani olub. Avaxlı və Məlhəm kəndləri qonşu kəndlər olduğundan Pir Ömərlə Əxi Mirimin yaxınlığı başadüşüləndir. O ki qaldı Bəyazid Pirani adına, onun da çox asan izahı var. Yəni Piran məhəlləsinin Şamaxının qədim məhəllələrindən biri olduğu məlumdur. Deməli, Yusif Müşkirinin əsərində adıçəkilən Bəyazid Pirani məhz Şamaxı şəhərinin Piran məhəlləsini təmsil edən Bəyaziddir. Avaxlı kəndindəki Pir Ömər ziyarətgahında dəfn olunmuş Şeyx Cəlil isə məhz Pir Ömər Avaxlının xəlifəsi Bəyazid Piraninin şəcərəsindən olan sufi təliminin davamçısıdır.

Tədqiqatlar nəticəsində Azərbaycanda sufiliyin önəmli qolu olan xəlvətilik sufi məktəbinin banisi Pir Ömər Avaxlı Şirvaninin türbəsi tam şəkildə aşkar edilərək öyrənilmişdir. 5x5 metr ölçüdə olan türbə yonulmuş çay və qaya daşları ilə hörülmüşdür. Onun şimal divarlarının nisbətən yaxşı qalan hissəsinin hündürlüyü 2,1 metr, qalınlığı 0,9 metr təşkil edir. Türbənin cənub tərəfi boyunca şərq-qərb istiqamətində uzanan qəbir kamerasının eni 0,9 metr, uzunluğu isə 2,1 metrdir. Qəbir kamerasının üzəri iri ölçülü qaya parçaları ilə örtülmüşdür. Qəbirdən şimal tərəfdə olan döşəmənin eni 1,9 metr, uzunluğu isə 3,2 metrdir. Döşəmənin şimal kənarı boyunca ziyarətçilərin oturub zikr etməsi üçün xüsusi kətil hörülmüşdür. Türbənin cənub divarının mərkəzində eni 0,5 metr, salamat qalmış hissədə hündürlüyü 0,8 metr olan tağvari taxça qeydə alınmışdır. Taxçanın çöl tərəfində, cənub divarı qarşısında aşkar edilən, səlcuq zənciri ilə haşiyələnən mehrab təsvirli xatirə daşı da məhz Pir Ömərin məzarına aiddir.

Türbənin qərb divarı qoz ağacının çürüməkdə olan koğuşu ilə əhatələnir. Zaman-zaman ağacın kökləri türbənin qərb və şimal divarlarını sıxaraq xeyli dərəcədə dağıtmışdır. Tədqiqat zamanı Pir Ömərin məhz belə bir ağacın koğuşunda zikr etməsi hadisəsi ilə bağlı geniş yayılmış rəvayətlərin elmi dəyərini nəzərə alaraq ekspedisiya heyəti ağaca toxunmamışdır. Bu səbəbdən də türbənin qərb divarı tam olaraq açılmamışdır. Oradan yalnız üzüüstə düşmüş vəziyyətdə olan türbə kitabəsini götürmək mümkün olmuşdur. Kitabənin türbənin şimal-qərb küncündə, türbədaxili döşəmənin ora ilə əlaqəli olduğunu, habelə türbənin qərb çöl tərəfində daş döşənmiş səkini xatırladan yerin mövcudluğu qapı yerinin məhz orada olduğunu göstərir.

Tədqiqat zamanı türbənin içərisi və ətrafından xəlvətilik sufi məktəbinə, onun banisi Pir Ömərə aid elmi cəhətdən çox mühüm əhəmiyyət kəsb edən artefaktlar üzə çıxmışdır. Həmin tapıntılar içərisində bilavasitə Pir Ömərə aid qəbir və türbə kitabəsi xüsusilə maraqlıdır. Türbə kitabəsindən bəlli olur ki, Pir Ömər 1409-cu ilin iyul ayında vəfat etmişdir. Kitabədə Pir Ömərin xəlvətilik sufi məktəbinin banisi və təriqət sahiblərinin əzizi olduğu qeyd olunmuşdur. Kitabədə həmçinin Pir Ömərə "şeyx", "zahid", "abid" kimi epitetlərlə xitab olunmuşdur. Maraqlıdır ki, ərəbdilli kitabədə Azərbaycan türkcəsində olan ifadələr də yer almışdır.

Qazıntı prosesində ərazidə bir-birinin yaxınlığında olan çoxsaylı müsəlman qəbirləri də aşkar edilmişdir. Qəbirlərdən birinin kitabəsində Qurani-Kərimin "Ğafir" surəsinin 16-cı ayəsi həkk olunmuşdur: "Bu gün hakimiyyət kimindir? Vahid və Qəhhar olan Allahın".

Tarixi, milli-mənəvi dəyərlərə həmişə yüksək önəm verən Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva 2020-ci ilin may ayının 25-də Şamaxı rayonuna səfərləri çərçivəsində Pir Ömər Sultan ziyarətgahında olmuş, orada aparılan arxeoloji tədqiqatlarla maraqlanmışlar. Prezident Pir Ömər Sultan ziyarətgahında aparılan tədqiqatların davam etdirilməsi və abidənin konservasiya olunması ilə bağlı aidiyyəti qurumlara tapşırıq və tövsiyələrini vermişdir.

Hazırda Dövlət Turizm Agentliyi tərəfindən Pir Ömər türbəsinin konservasiya edilməsi üçün lahiyə hazırlanaraq təsdiq edilib. Yaxın günlərdə konservasiya işlərinə başlanacaq. Bu da ölkəmizə gələn turistlərin üz tutacağı bir məkan olmaqla yanaşı, türk və islam dünyasının Azərbaycana olan diqqətini daha da artıracaq.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.-20 avqust.- S.8.